**Zöhrə CAMALOVA**
*Bakı Dövlət Universiteti*
*Kitabxana işinin təşkili və idarə edilməsi*
*laboratoriyasının müdiri*

## QAYĞIKEŞ İNSAN, SƏMİMİ RƏHBƏR

Bu il respublikamızın kitabxana ictimaiyyəti görkəmli kitabxanaşünas alim Əməkdar elm xadimi, professor Abuzər Xələfovun 75 illik yubileyini qeyd etməyə hazırlaşırlar. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Təhsil Nazirliyi və Bakı Dövlət Universitetinin rəhbərliyi bu möhtəşəm tədbiri həyata keçirmək üçün ayrı-ayrıqda əmrlər vermiş və Abuzər Xələfovun irsini yüksək qiymətləndirmişlər. Azərbaycan Respublikasının Təhsil Naziri hörmətli Misir Mərdanovun 09.11.2006-cı il tarixli «Yubileyin qeyd olunması barədə» əmrində oxuyuruq: 2006-cı ilin dekabr ayında Azərbaycan kitabxanaşünaslıq elminin və təhsilinin tanınmış nümayəndələrindən biri, kitabxana tarixçisi və nəzəriyyəçisi, pedaqoq-alim Xələfov Abuzər Alı oğlunun 75 yaşı tamam olur. O, təkcə Azərbaycanda deyil bir sıra xarici ölkələrdə tanınmış alim, milli mədəniyyətimizin görkəmli tədqiqatçılarından təbliğatçılarından biridir.

A.Xələfov BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Azərbaycan Respublikanın Əməkdar Mədəniyyət işçisi, tarix elmləri doktoru, professordur. O, 55 ildir ki, elmi-pedaqoji fəaliyyətlə məşğul olur, qiymətli tədqiqatlar aparır, nəzəri və elmi problemlərə dair monoqrafiyalar, əsərlər və dərsliklər nəşr etdirir. A.Xələfov 130-dan çox monoqrafiya, dərslik və dərs vəsaitinin müəllifidir. O, 25 il «Kitabxanaçılıq» fakültəsinin dekanı olmuş, 45 ilə yaxındır ki, «Kitabxanaşünaslıq» kafedrasının müdiri vəzifəsində çalışır. Bu, Təhsil Nazirliyin Abuzər Xələfov irsinə verdiyi yüksək giymətdir və yubiley

münasibətilə o, nazirliyin «Azərbaycan Respublikasının Qabaqcıl təhsil işçisi» nişanı ilə mükafatlandırılmışdır. Əslində Abuzər müəllimin heç bir mükafata ehtiyacı yoxdur. Ona görə ki, o, bir təhsil işçisi kimi özünün ali mükafatını liderimiz Heydər Əliyev tərəfindən alıb.

Hazırda Mədəniyyət Nazirliyin əmri ilə bütün kitabxanalarda və Mədəni- maarif müəssisələrində Abuzər müəllimin yubileyi ilə əlaqədar tədbirlər keçirilir. Onlar bu tədbirləri keçirməklə fəxr edir və böyük məmnuniyyətlə bu görüşə gəlirlər. Noyabrın 4-də F.Köçərli adına Respublika Uşaq Kitabxanasında Abuzər müəllimlə keçirilən görüş bu bir daha sübutdur. Görüşü kitabxananın direktoru açaraq Abuzər müəllimin həyat və yaradıcılığı haqqında qısa məlumat verdikdən sonra çox haqlı olaraq qeyd etdi ki, respublikamızda çalışan bütün kitabxanaçılar özlərini Abuzər tələbələri hesab edirlər. Sonra çıxış edən dos. R.Kazımov, dos.S.Rzayev, dos. E.Əhmədov, dos.Knyaz Aslan və digər natiqlər Abuzər müəllimin çoxşaxəli yaradıcılığından söhbət etmiş və onun elmi irsini yüksək qiymətləndirmişlir. Belə bir görüş Respublika Elmi-Tibb kitabxanasında da yüksək səviyyədə keçmişdir. Hazırda bu görüşlər davam edir. Bu görüşlərdə əsas məqsəd Azərbaycanda kitabxanaşünaslıq elminin Xələfov timsalında inkişafı və mövcud sahədə görüşlər bugünkü işlər üçün ona minnətdarlıq hissini bildirmişdir. Hazırda Respublikamızda kitabxanaçılıq təhsil sistemi dünya standartına cavab verir. Heç təsadüfi deyil ki, hələ keçmiş sovetlər dövründə Azərbaycanda kitabxanaçılıq təhsili çox yüksək qiymətləndirilirdi. Buna isə bilavasitə Abuzər Xələfov öz şəxsi çalışqanlığı ilə nail olmuşdur. O, Respublikamızda kitabxanaçılıq təhsil sistemini inkişaf etdirməklə yanaşı, bu sahədə işləyən kadrların da qayğısına qalmış və indiyə kimi 20-yə qədər elmlər namizədi və elmlər doktoru yetişdirmişdir. Abuzər müəllimin fəaliyyəti dövründə kitabxanaçılıq-informasiya fakültəsini 5 mindən çox tələbə bitirmiş və hazırda respublikamızın müxtəlif sahələ-



rində işləyirlər. Abuzər müəllim onların hər biri ilə fəxr edir. Hələ onların özləri də Abuzər müəllimin bugünkü ali zirvəyə çatması ilə fəxr edir və onu ömrünün 75 ildönümü münasibətilə təbrik edir, ona yeni-yeni yaradıcılıq uğurları arzulayırlar.